*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (3) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:03.04.2025*
*Kabul tarihi |Accepted:14.05.2025*
*Yayın tarihi |Published:25.06.2025*

**Hüseyn Hüseynli**

***https://orcid.org/0000-0001-7954-0381***
*Doctor of Philosophy in History, Associate Professor, Baku State University, Department of New and Modern History of European and American Countries, Azerbaijan, huseyn.huseynli@bsu.edu.az*

***Atıf Künyesi | Citation Info***

Hüseynli, H. (2025). Türkiyə-Azərbaycan Ticarət-İqtisadi Münasibətləri: Tarixi İnkişaf və Müasir Trendlər (2005-2021-ci İllər). *Akademik Tarih ve Düşünce Dergisi, 12* (3), 536-548.

# Türkiyə-Azərbaycan Ticarət-İqtisadi Münasibətləri: Tarixi İnkişaf və Müasir Trendlər (2005-2021-ci İllər)

***Xülasə***

*Məqalə Türkiyə və Azərbaycan arasında ticarət-iqtisadi münasibətlərini təhlil edir. Tədqiqat 2000-ci illərdən etibarən inkişaf edən iqtisadi əlaqələrin əsas istiqamətlərini, regional əməkdaşlıq mexanizmlərini və strateji layihələrin rolunu araşdırır. Məqalədə ticarət dövriyyəsinin dinamikası, enerji və nəqliyyat sahələrində əməkdaşlıq, eləcə də investisiya siyasəti xüsusi vurğulanır. Türkiyənin Azərbaycan və Gürcüstanla ticarət əlaqələrinin daha geniş olduğu, Ermənistanla isə siyasi amillərə görə məhdud qaldığı qeyd edilir. Eyni zamanda, Türkiyənin bölgədə iqtisadi təsirinin artması və gələcək perspektivlər təhlil olunur. Məqalə Türkiyənin Azərbaycanla ticarət siyasətinin regionun iqtisadi inteqrasiyasına və dayanıqlı inkişafına təsirini qiymətləndirir.*

***Açar sözlər:*** *Türkiyə, Azərbaycan, Cənubi Qafqaz, İqtisadi Əlaqələr, Ticarət Dövriyyəsi*

# Turkey-Azerbaijan Trade and Economic Relations: Historical Development and Modern Trends (2005-2021)

***Abstract***

*The article analyses trade and economic relations between Turkey and Azerbaijan. It analyses the main directions of economic relations that have developed since the 2000s, regional cooperation*

BY NC Creative Commons Licence

*mechanisms and the role of strategic projects. The article highlights the dynamics of trade volume, cooperation in energy and transport sectors and investment policy. It is noted that Turkey's trade relations with Azerbaijan and Georgia are more extensive, while those with Armenia remain limited due to political factors. It also analyses the growth and future prospects of Turkey's economic influence in the region. The article assesses the impact of Turkey's trade policy with Azerbaijan on the economic integration and sustainable development of the region.*

***Keywords:*** *Turkey, Azerbaijan, South Caucasus, Economic Relations, Trade Turnover*

## Giriş

Cənubi Qafqaz geosiyasi mövqeyi, zəngin təbii ehtiyatları və tarixi inkişafı baxımından həm qlobal, həm də regional siyasətdə strateji əhəmiyyətə malik bir bölgədir. Regionun üç dövləti – Azərbaycan, Gürcüstan və Ermənistan – siyasi, iqtisadi və mədəni baxımdan fərqli xüsusiyyətlərə sahibdir. Türkiyə ilə iqtisadi və ticarət əlaqələri baxımından isə Ermənistan istisna olmaqla, Azərbaycan və Gürcüstan mühüm əməkdaşlıq münasibətləri qurmuşdur. XX əsrin 1990-cı illərinin əvvəllərində demək olar ki, mövcud olmayan ticarət dövriyyəsi 2000-ci illərin ilk onilliyində, Ankara ilə diplomatik əlaqələrin mövcud olmadığı və sərhədlərin bağlı qaldığı Ermənistanla belə əhəmiyyətli dərəcədə artdı. Bu dinamika Türkiyənin regional güc statusunu möhkəmləndirmək strategiyasının tərkib hissəsi kimi qiymətləndirilə bilər. Türkiyənin bölgəyə artan marağı və dəstəyi nəticəsində Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri başda olmaqla alternativ enerji nəqli marşrutlarının inşası həyata keçirildi, sonrakı dövrdə isə avtomobil yolları və dəmir yolu xətləri vasitəsilə iqtisadi və ticarət əlaqələrinin intensiv inkişafına şərait yaradıldı.

Azərbaycan Cənubi Qafqaz regionunda iqtisadi və ticarət baxımından ən sürətli və sabit şəkildə inkişaf edən ölkədir. Siyasi sabitliklə də dəstəklənən iqtisadi və ticarət strukturu Azərbaycanın həm Cənubi Qafqazda, həm də qlobal miqyasda mövqeyini gücləndirməkdədir. Azərbaycanın 1998-ci ildə 4,1 milyard ABŞ dolları olan ümumi daxili məhsulunun (ÜDM) 2005-ci ildə 12,5 milyard, 2008-ci ildə isə 40,1 milyard dollar, 2016-cı ildə 60,4 milyard dollar, 2021-ci ildə isə 93,2 milyard ABŞ dollarına çatdığı müşahidə olunur (İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı 2025). Bununla əlaqədar olaraq, adambaşına düşən gəlir də 1998-ci ildə 537 dollardan 2005-ci ildə 5500 dollar səviyyəsinə yüksəldi. Son illərdə daimi olaraq ikirəqəmli artım sürətini qoruyan Azərbaycan, digər Cənubi Qafqaz ölkələri ilə arasındakı fərqi daha da artırdı. Bu inkişafda isə Türkiyənin kifayət qədər rolu var idi.

## 1. İkitərəfli iqtisadi əlaqələrin hüquqi bazası

Türkiyə, Azərbaycandakı xarici sərmayədarlar arasında prioritet mövqeyə malikdir. SSRİ-nin dağılmasından sonra ilk on il ərzində Azərbaycanda minə yaxın Türkiyə şirkəti quruldu, bu şirkətlərin yarısı bu gün də fəaliyyətini davam etdirməkdədir. 2009-cu ilin sonuna olan məlumata görə, Azərbaycanda türk şirkətlərinin birbaşa investisiyaları 4,5 milyard dollara, podratçılıq layihələrinin ümumi dəyəri isə 2,9 milyard dollara çatdı. Enerji sektoru istisna olmaqla, türk şirkətləri digər sahələrə qoyulan sərmayələr baxımından Azərbaycan iqtisadiyyatında əsas investor mövqeyindədir. İkitərəfli münasibətlərin əsasını tez-tez vurğulanan “bir millət – iki dövlət” düşüncəsi təşkil etsə də, münasibətlərin strateji ölçüsü getdikcə güclənməkdədir. Xüsusilə XX əsrin əvvəllərində təməli möhkəmləndirilməyə başlanılan strateji münasibətlər XX əsrin sonu və XXI əsrin əvvəllərində atılan addımlar və qəbul edilən qərarlarla ən yüksək səviyyəyə çatdırıldı. İkitərəfli iqtisadi əlaqələrin hüquqi bazasına gəldikdə isə əsrin əvvəllərində Türkiyə və Azərbaycan arasında aşağıdakı sənədlər imzalandı:

*7 sentyabr 2005-ci ildə “Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında bank nəzarəti sahəsində Anlaşma Memorandumu”. Bununla hər iki ölkənin aidiyyəti qurumları, milli sərhədlərindən kənarda fəaliyyət göstərən maliyyə institutlarına effektiv və koordinasiyalı nəzarətin təmin edilməsi məqsədilə informasiya mübadiləsinin aparılmasını qəbul edirdi.

*6 noyabr 2007-ci ildə “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və icra planı”. Bu anlaşmaya əsasən, iki ölkə arasındakı ticarət əlaqələrinin daha da inkişaf etdirilməsi məqsədilə milli qanunvericilik və beynəlxalq öhdəliklər çərçivəsində qeyri-tarif maneələrinin aradan qaldırılması, Preferensial Ticarət Sazişinin imzalanması imkanlarının qiymətləndirilməsi, özəl sektorlar arasında xarici ticarət fəaliyyətində yarana biləcək problemlərin operativ və ədalətli həlli, eləcə də hər iki ölkənin gömrük orqanları arasında təcrübə və mütəxəssis mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulurdu.

*13 iyul 2010-cu ildə “Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi ilə Türkiyə Respublikasının Kapital Bazarı Şurası arasında əməkdaşlıq və informasiya mübadiləsi” haqqında Anlaşma Memorandumu”

*16 avqust 2010-cu ildə “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə”.

*15 sentyabr 2010-cu ildə “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında birgə bəyannamə”.

*31 may 2020-ci ildə Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi.

13 oktyabr 2002-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının iclasında iştirak etmək üçün İstanbula gələn Prezident Heydər Əliyev, 15 oktyabrda türk iş adamları ilə görüş keçirdi. Görüş zamanı türk iş adamlarını Bakıya dəvət edən Heydər Əliyev, onların problemlərini həll edəcəyini bildirdi. Bundan sonra, 11 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti H. Əliyev Prezident sarayında Türkiyədən gələn tanınmış iş adamları ilə görüşdü. Görüşdə Türkiyənin məşhur iş adamlarından Sakıp Sabancı, Bülent Eczacıbaşı, Nihat Koçyiğit və digərləri iştirak edirdi. Görüş zamanı iş adamlarının Azərbaycanla bağlı fikirləri dinlənildi, onların investisiya qoymaq istədikləri sahələr dəyərləndirildi. Maraqlısı odur ki, bu iclasda olduqca məhsuldar fikir mübadiləsi aparılsa da, sonrakı dövrdə bu iş adamları Azərbaycana investisiya yatırmadı.

2005-ci il aprelin 14-də İstanbul şəhərində Azərbaycan-Türkiyə hökumətlərarası Müştərək İqtisadi Komissiyasının üçüncü iclası keçirildi. Qeyd edək ki, Azərbaycan-Türkiyə hökumətlərarası Müştərək İqtisadi Komissiyası iki ölkə arasında iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün yaradılmış mühüm mexanizm hesab olunurdu. Bu komissiya hökumətlər səviyyəsində iqtisadi əməkdaşlıq sahəsində koordinasiyanı təmin edir, müxtəlif sektorlarda birgə layihələrin həyata keçirilməsinə töhfə verir və iqtisadi siyasətlərin uzlaşdırılmasına şərait yaradırdı. Komissiyanın əsas məqsədlərini aşağıdakı kimi təsnifləndirmək olar:

*İqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi;

*Sənaye, enerji və nəqliyyat sahələrində əməkdaşlıq;

*İnvestisiya mühitinin yaxşılaşdırılması və qarşılıqlı sərmayələrin təşviqi;

*Ticarət maneələrinin aradan qaldırılması və gömrük prosedurlarının asanlaşdırılması;

*İki ölkə arasında strateji iqtisadi layihələrin həyata keçirilməsi (2005-ci il aprelin 14-də İstanbul şəhərində imzalanmış “Azərbaycan-Türkiyə hökumətlərarası Müştərək İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu”nun nəzərə alınması barədə Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı, 2025). Azərbaycan-Türkiyə hökumətlərarası Müştərək İqtisadi Komissiyasının dördüncü iclası 27-28 iyul 2006-cı il tarixlərində Bakıda, beşinci iclası isə 11 aprel 2008-ci ildə İstanbulda keçirildi. Bu iclaslarda mühüm əməkdaşlıq istiqamətləri ilə yanaşı, mövcud problemlər də vurğulandı. Eləcə də, yaxın dövrlərdə atılacaq addımlar barədə fikir

mübadiləsi aparıldı. Bunlar arasında birgə Ticarət Palatasının yaradılması, Azərbaycanın Türkiyə vətəndaşlarına viza tətbiqinin asanlaşdırılması, Türkiyədən gələn yük maşınlarının logistika problemlərinin həlli, günəş, külək, biokütlə və hidroenerji kimi yenilənə bilən alternativ enerji mənbələri ilə bağlı əməkdaşlığın inkişaf etdirilməsi, "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) şirkətinə bağlı TPIC ilə SOCAR arasında çoxşaxəli əməkdaşlığın gücləndirilməsi və Azərbaycan-Türkiyə Biznes Forumunun fəaliyyətinin daha da canlandırılması təşəbbüsləri xüsusilə diqqət çəkdi. İki ölkə arasında iş forumlarının təşkil edilməsi ilə Türkiyə və Azərbaycan mikro, kiçik və orta sahibkarlıq subyektləri arasında əməkdaşlıq genişləndi (Azərbaycan-Türkiyə iş adamları forumu keçiriləcək, 2025). Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana səfəri çərçivəsində, 6 noyabr 2007-ci il tarixində iki ölkə arasında uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və icra planı imzalandı. Burada məqsəd, iqtisadi əlaqələrdəki problemli sahələri mümkün qədər azaltmaq və qarşılıqlı inkişaf perspektivlərini gücləndirmək idi.

16 avqust 2010-cu ildə imzalanan genişmiqyaslı Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqavilə ilə münasibətlər daha da dərinləşdirildi, 15 sentyabr 2010-cu ildə isə iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılmasına dair Birgə Bəyənnamə imzalanması ilə strateji münasibətlərdə yeni mərhələnin əsası qoyuldu. Bütün bu addımlar ikitərəfli iqtisadi münasibətlərin hüquqi bazası baxımından da əhəmiyyətli idi. Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım müqaviləsinin "İqtisadi Əməkdaşlıq Məsələləri" adlı bölməsində olan 10, 11, 12 və 13-cü maddələrdə ikitərəfli iqtisadi münasibətlərin əsasları tənzimləndi. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində həyata keçirilən fəaliyyətlərdə və qəbul edilən qərarlarda da iqtisadi aspektə xüsusi önəm verildi. Həmin müqavilənin 10-cu maddəsində tərəflərin ticarət-iqtisadi əlaqələri genişləndirmək və iqtisadi inteqrasiyanı dərinləşdirmək üçün fəaliyyətlərini intensivləşdirəcəyi vurğulanırdı. 11-ci maddədə isə investisiya, ticarət, sənaye, maliyyə, nəqliyyat, turizm və alternativ enerji kimi sahələrdə əməkdaşlığın inkişaf etdiriləcəyi qeyd olunurdu. Müqavilənin 12-ci maddəsində tərəflər enerji sahəsində qlobal və regional təhlükəsizliyin təmin edilməsi və iqtisadi inkişafın gücləndirilməsi məqsədilə ərazilərindən keçən strateji enerji layihələrinin dayanıqlı fəaliyyətini təmin etmək üçün bütün zəruri addımları atacaqlarını, 13-ci maddəsində isə, tərəflər arasında dəniz, quru, hava və dəmir yolu nəqliyyatında əməkdaşlığın dərinləşdirilməsi qərara alınırdı (Aslanlı, 2018). 2021-ci il fevralın 19-da Ankarada Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyasının 9-cu iclası keçirildi. Baş nazir Əli Əsədov və Vitse-prezident Fuat Oktay, Türkiyə və Azərbaycan hökumətlərinin üzvləri iclasda

iştirak etdilər. Burada 8-ci iclasda qəbul olunmuş qərarların həyata keçirilməsinin vəziyyəti müzakirə olunaraq növbəti illərdə iqtisadi və ticarət əlaqələrini sürətləndirməyin yolları haqqında danışıqlar aparıldı. Sonda iqtisadi əməkdaşlığa dair bəzi sənədlər imzalandı:

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol;

*Halal akkreditasiya sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu;

*Türk Akkreditasiya Agentliyi (TÜRKAK) ilə Azərbaycan Akkreditasiya Mərkəzi (AzAK) arasında Əməkdaşlıq Protokolu;

*Nəqliyyat və elm texnologiyaları sahələrində tədqiqat və inkişaf fəaliyyətləri istiqamətində əməkdaşlıq haqqında Anlaşma Memorandumu (Ankarada Azərbaycan-Turkiyə Hökumətlərarası Əməkdaşlıq Komissiyasının 9-cu iclası keçirilib, 2025).

**2. Türkiyə və Azərbaycan Şirkətlərinin Qarşılıqlı Yatırımları**

Dünya ölkələrinin 80% iqtisadiyyatını və 75% qlobal ixracını özündə cəmləşdirən Böyük 20-liyin (G20) üzvü kimi Türkiyə Azərbaycan iqtisadiyyatının inkişafında önəmli paya sahibdir. Türkiyə Respublikası tərəfindən Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyalar 2019-2021-ci illər ərzində davamlı şəkildə artdı. 2019-cu ildə türk investorlardan Azərbaycan iqtisadiyyatına 571 milyon ABŞ dolları sərmayə qoyuldu, 2020-ci ildə isə 0,2% artımla bu məbləğ 578 milyon ABŞ dollarına çatdı. 2020-ci ilin çətin şəraitində, yəni Covid-19 pandemiyasının yayılması dövründə, Türkiyə investorları tərəfindən qoyulan kapital həcmi də artdı. Bu sərmayələr, Azərbaycan iqtisadiyyatına yönəldilən ümumi investisiyalar arasında 12,8% pay təşkil edirdi və Böyük Britaniyadan sonra ikinci ən yüksək investisiya mənbəyi idi. Azərbaycanda 4200-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir ki, bu da ölkədə fəaliyyət göstərən xarici şirkətlər arasında ən yüksək göstəricidir. 2 aprel 2021-ci ildə Azərbaycanda Türkiyənin işgüzar dairələri iştirakı ilə keçirilən görüş zamanı AR-nın İqtisadiyyat naziri Mikayıl Cabbarov bu barədə qeyd edirdi: “Bu göstərici üzrə Türkiyə birinci yerdə qərarlaşıb. Eyni zamanda, Türkiyə şirkətləri Azərbaycanda dövlət büdcəsi vəsaiti hesabına keçirilən və dəyəri 16,3 milyard ABŞ dolları olan 300-dən layihədə çox podratçı qismində iştirak edərək bu sahədə də liderliyini saxlayır” (Azərbaycanda 4 200-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir, 2025). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu şirkətlərin əksəriyyəti öz investisiyalarını tikinti və infrastruktur layihələrinə (Qarabağ və Şərqi Zəngəzur azad edildikdən sonra müvafiq layihələrə qoyulan sərmayenin miqdarı daha da artıb), ticarət, xidmət sektoru, enerji və sənaye sahəhərində olan layihələrə yatırıb. Bu şirkətlərdən “ARAL

Group", "Amper Elektrik İnşaat və Sanayi A.Ş", "Pak Yatırım İnşaat Sanayi ve Ticaret Anonim", "Proyapı", "Özgün İnşaat", "Kalyon Holding", "Tekfen İnşaat ve Tesisat A.Ş", "ENKA İnşaat ve Sanayi A.Ş", "CCN Altyapı Yatırımları ve İnşaat A.Ş" və başqalarını göstərmək olar. Yeri gəlmişkən "Proyapı" şirkəti, "Engineering News-Record"-un (ENR) 2023-cü il reytinqinə görə, dünyanın ən nüfuzlu tikinti layihələrini icra edən şirkətlər arasında 138-ci, Türkiyə şirkətləri arasında isə 2-ci yerdə idi. Bu şirkətin fəaliyyətinə həmçinin, Gəncə şəhərini Kəlbəcərlə birləşdirəcək avtomobil yolunun Murovdağ silsiləsindən keçən tunelin inşası də daxildir (Fikrətoğlu, 2025). Zəngəzur dəhlizində strateji əhəmiyyətli Əhmədbəyli-Horadiz-Minicivan-Ağbənd avtomobil yolu, eyni zamanda bu dəhlizin 120 km-lik magistralını və dəmir yolunun inşasını "Kalyon Holding" şirkəti icra edir. Azərbaycanda uzun illərdir fəaliyyət göstərən və bir çox layihələri reallaşdıran aparıcı türk şirkətlərindən biri də "Tekfen İnşaat ve Tesisat A.Ş"-dir. Şirkət Azərbaycan Mərkəzi Bankının yeni binasının təhvili ilə bağlı tikinti müqaviləsi imzalayıb. Müqavilə çərçivəsində Mərkəzi Bankın binası 36 ay ərzində təhvil verilməli idi. Binanın sahəsi ümumilikdə 67 min 981 kvadratmetr, 37 mərtəbədən ibarət olmaqla 168 metr hündürlükdə olmalı idi. Şirkətlə 218 milyon avro dəyərində müqavilə imzalandı. Qeyd olunmalıdır ki, "Tekfen İnşaat ve Tesisat A.Ş" bundan əvvəl, "SOCAR Tower" və Bakı Olimpiya Stadionunun tikintisini də həyata keçirib. 30 may 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən açılışı edilən "SOCAR Tower", ENR tərəfindən "İlin Ən Yaxşı Beynəlxalq Ofis Binası Layihəsi" seçildi. 1996-cı ildən etibarən Azərbaycanda fəaliyyət göstərən Tekfen İnşaat, BTC Xam Neft Boru Xətləri, Şahdəniz-1 və Şahdəniz-2 layihələri çərçivəsində boru xətləri, neft və təbii qaz terminalları ilə dəniz platformaları da daxil olmaqla, neft və qaz sahəsində çoxsaylı layihələr həyata keçirdi. Hazırda isə şirkət 2025-ci il Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində əks olunan alternativ və bərpa olunan enerji sahələrinin inkişafı sahəsində də ölkəyə xidmət göstərməkdədir (Tekfen İnşaat'tan Azerbaycan'da Stratejik İşbirliği İmzası, 2025). Azərbaycan fəaliyyət göstərən şirkətlərdən biri də "Sur Yapı"-dır. Şirkət Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC ilə bir bənd layihəsində, AR Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə isə Qarabağ bölgəsi başda olmaqla, Azərbaycanın digər rayonlarında infrastrukturun yenidən qurulması üzrə əməkdaşlıq müqavilələri imzalayıb. Müqavilə "Sur Yapı"-nın sponsor olaraq dəstək verdiyi Xarici İqtisadi Əlaqələr Şurası (DEİK) Türkiyə-Azərbaycan Biznes Forumu ilə eyni vaxtda keçirilən Azərbaycan Qarışıq İqtisadi Şurası toplantısı çərçivəsində baş tutdu. İclas zamanı, ilk olaraq Sur Yapı ilə Azərsu arasında Salyan və Neftçala şəhərləri

arasındakı təmiz su təchizatı xətti layihəsinin müqaviləsi imzalandı (Sur Yapı'nın Azerbaycan projeleri için ilk adımlar atıldı, 2025). Göründüyü kimi, Türkiyə iş adamlarının Azərbaycana yatırdığı investisiyalar olduqca əhəmiyyətlidir. Lakin maraqlısı odur ki, son illərdə Türkiyədə Azərbaycan şirkətləri müxtəlif istiqamətlər üzrə sərmaye qoyur və Türkiyənin iqtisadiyyatına öz töhfəsini göstərir. Hətta Türkiyə və Azərbaycan arasında qarşılıqlı investisiyanın həcmi son illər daha da artıb. Türkiyədən Azərbaycana təxminən 16 milyard ABŞ dollarından artıq sərmayə qoyulubsa, Azərbaycanın qoyduğu sərmayenin həcmi isə təxminən 20 milyard ABŞ dollarıdır. Türkiyəyə yatırım edən ən böyük Azərbaycan şirkəti isə, sözsüz ki, SOCAR-dır. Şirkətin qardaş ölkədə yatırımlarını artırması iki ölkənin iqtisadiyyatlarının gələcəkdə vəhdət halında işləməsi üçün zəmin yaradacaq. Əgər əvvəlki illərdə Türkiyənin Azərbaycandadakı yatırımları həyati əhəmiyyət kəsb edirdisə, artıq Azərbaycandan Türkiyəyə irihəcmli investisiyaların qoyuluşu artmaqdadır (Türkiyə şirkətləri Qarabağda 4 milyard ABŞ dolları dəyərində olan layihələr icra edir, 2025). 2009-cu ildə Türkiyədə fəaliyyət göstərən beynəlxalq sərmayəli şirkətlərin sayı 22 min 505 idi. Türkiyə Xəzinə Müşavirilyinin məlumatlarına əsasən, Türkiyədə fəaliyyət göstərən beynəlxalq sərmayəli şirkətlərin 12 min 312-si (54,7%) Avropa İttifaqı ölkələrindən gələn şirkətlər idi. Bunlar arasında Almaniya 3852 şirkətlə birinci yerdə, Böyük Britaniya 2123 şirkətlə ikinci, Niderland isə 1732 şirkətlə üçüncü yerdə qərar tuturdu. Siyahı üzrə 1089 şirkətlə İran, 974 şirkətlə ABŞ, 651 şirkətlə Azərbaycan və 627 İraqdan beynəlxalq şirkət gəlirdi.

Azərbaycan, Türkiyənin dünyaya ixrac etdiyi kapitalda Niderlanddan sonra ən çox sərmayə yönəltdiyi ikinci ölkədir. Sözügedən kapital transferinin 97,1%-i Türkiye Petrolleri Anonim Ortaklığı tərəfindən həyata keçirildi. TPAO, Azərbaycanda üç axtarış, hasilat və istehsal layihəsində pay sahibidir: Azəri-Çıraq-Günəşli yatağında 6,75%, Şahdəniz layihəsində 9% və Alov yatağında 10% paya malikdir. Bundan əlavə, BTC və Cənubi Qafqaz Qaz Boru Kəməri kimi enerji layihələri də nəzərə alınmalıdır. 2010-cu ildə Azərbaycanda enerji sektoru xaricində türk sərmayesinin həcmi 2,2 milyard dollara yaxınlaşdı. Dövlət sektoru ilə yanaşı, özəl sektorun da yatırımları Türkiyəni Azərbaycanda yalnız siyasi deyil, eyni zamanda iqtisadi tərəfdaş kimi ön plana çıxardı (Çelikpala, 2010). Azərbaycanda qeyri-neft sektoruna ən çox sərmaye yatıran ölkə Türkiyə olsa da, Azərbaycan şirkətləri isə Türkiyədə energetika və kimya sektoruna daha çox investisiya qoyur. Energetika sektoru iqtisadi əməkdaşlıq baxımdan Azərbaycan və Türkiyə arasında ən vacib sahədir. BTC keft kəməri layihəsi və BTƏ təbii qaz boru kəməri layihəsi iqtisadiyyat və strategiya baxımından enerji sektoru üçün son dərəcə əhəmiyyətlidir. 2001-ci ilin

mart ayında Türkiyə və Azərbaycan arasında "Türkiyəyə təbii qaz satışı layihəsinin dəstəklənməsi" haqqında sazişin imzalanması, iki dövlət arasında strateji əməkdaşlığın inkişaf etdirilməsi baxımından əhəmiyyətli hadisə oldu. Enerji sahəsindəki əməkdaşlıq, Azərbaycan neft şirkəti SOCAR-ın Türkiyə enerji bazarına daxil olması ilə daha da gücləndi. Şirkət 2008-ci ildə "Turcas" şirkətinin 51%, daha sonra isə 25% səhmlərini alaraq sərmayəsini 2,6 milyard ABŞ dollarına yüksəltdi və şirkətin adını "SOCAR Türkiyə Enerji A.Ş." olaraq dəyişdirdi. "PETKİM" yarımadasında başlatdığı 10 milyon ton xam neft emalı gücünə malik "STAR" neftayırma zavodu layihəsi və külək enerjisi stansiyası ilə Türkiyənin bərpa olunan enerji sahələrinə əhəmiyyətli dərəcədə töhfə verməkdədir. Eyni zamanda, neftayırma zavodu Türkiyənin enerji ehtiyaclarının əsas hissəsi olan mayeləşdirilmiş neft qazı və təyyarə yanacağı istehsal edərək, Türkiyəyə ildə təxminən 1,5 milyard ABŞ dolları qənaət etməyə dəstək olur (Türkiyə Azərbaycanda qeyri-neft sektoruna ən çox investisiya qoyan ölkədir, 2025). Bununla da Azərbaycan ixracatda neftdən təkcə xammal kimi deyil, yarımfabrikatlar və hazır məhsul satışı həyata keçirir.

**3. Türkiyə və Azərbaycan Arasında Ticarət Dövriyyəsinin Dinamizmi**

İki ölkə arasında XX ərin 90-cı illəri ilə müqayisədə XXI əsrin əvvəllərində mal dövriyyəsi bir neçə dəfə artdı. 2000-ci ildə Türkiyənin Azərbaycana 230,4 milyon dollar olan ixracatı 2010-cu ildə 771 milyon ABŞ dollarına çatdı. 2000-ci ildə 95,6 milyon dollar olan idxalatı isə 2010-cu ildə 170 milyon dollara yüksəldi. Azərbaycanla ticarət, Türkiyənin ümumi ticarət həcmi içində həm ixracatda, həm də idxalatda 1%-dən azdır. Bununla belə, Türkiyə Xarici Ticarət Müşavirliyinin 2008-ci il məlumatlarına görə, Türkiyə, Rusiyadan sonra Azərbaycanın idxalatında 12%-lik payla ikinci yer tuturdu. Türkiyə şirkətlərinin Azərbaycandakı birbaşa investisiyaları 2000-ci illərdə artaraq, 2009-cu il etibarilə 4,5 milyard dollara çatdı. Türkiyə və Ermənistan arasında imzalanan protokollar səbəbilə Türkiyə-Azərbaycan əlaqələrində 2008-2010-cu illərdə qısamüddətli gərginlik yarandı (Oran, 2013). Təxminən 3 il fasilədən sonra isə bu gərginlik aradan qaldırıldı və iki ölkə arasındakı ticarət dövriyyəsi yenindən canlandı. Aşağıdakı cədvəldə 2013-2021-ci illər üzrə Türkiyə və Azərbaycan arasında ticarət dövriyyəsinə dair hər iki ölkənin rəsmi statistik göstəriciləri qeyd olunub.

***Türkiyə-Azərbaycan ümumi ticarət dövriyyəsinə dair hər iki ölkənin rəsmi statistik göstəriciləri (2013-2021-ci illər) Türkiyə Statistika Komitəsi (TÜİK)*** **(**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi).

| **İllər** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Türkiyənin rəsmi statistikası əsasında** | | | | | | | | | |
| **(mln. $)** | 3,787 | 3,543 | 2,449 | 1,715 | 1,860 | 2,110 | 2,199 | 2,496 | 3,094 |
| **Azərbaycanın rəsmi statistikası əsasında** | | | | | | | | | |
| **(mln. $)** | 1,990 | 1,789 | 2,649 | 2,367 | 2,668 | 3,403 | 4,510 | 4,160 | 4,662 |

2014-2015-ci illərdə ticarət dövriyyəsi üzrə dinamika əvvəlki ilə nisbətən aşağı düşdü. Bunun bir neçə əsas səbəbi var idi:

*2014-cü ildən etibarən qlobal neft qiymətləri kəskin şəkildə azaldı;

*2014-cü ildə Krımın ilhaqı və Ukraynadakı münaqişəyə görə Rusiyaya qarşı tətbiq edilən Qərb sanksiyaları rublun dəyərini aşağı saldı və bu, postsovet ölkələrinin iqtisadiyyatına mənfi təsir etdi;

*2015-ci ildə Azərbaycan manatı iki dəfə devalvasiya edildi. Bu da ölkənin xarici ticarət dövriyyəsinə, o cümlədən Türkiyə ilə ticarət əlaqələrinə mənfi təsir göstərdi;

*2015-ci ildə Türkiyədə terror hadisələri və təhlükəsizlik problemləri artdı, bu da öz növbəsində ticarət və sərmayə mühitinə mənfi təsir göstərdi.

TÜİK-in hesabatına görə iki ölkə arasında 2021-ci il üçün olan ticarət dövriyyəsi 3 milyard 94 milyon 79 min, lakin Azərbaycan Dövlət Statistika Komitəsinin hesabatına görə isə 4 milyard 661 milyon 845 min ABŞ dolları idi. Rəqəmlər arasında fərq kifayət qədər böyük olsa da bu, iki ölkə arasında ticarət həcminin son həddi deyil, gələcək illərdə ticarət dövriyyəsinin daha da artmalı olduğu hər iki dövlət rəsmiləri tərəfindən geniş müzakirə edilir.

Aşağıda, 2005-2021-ci illər üzrə Azərbaycan və Türkiyə üzrə idxal və ixrac üzrə qrafik təsvir göstərilib. Göründüyü kimi, 2019-2021-ci illərdə Azərbaycandan Türkiyəyə olan ixracda əhəmiyyətli artım müşahidə olunmaqdadır.

**Azərbaycan və Türkiyə arasında idxal və ixrac göstəriciləri (mln.$)** (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi).




Azərbaycandan Türkiyəyə ixrac olunan məhsulların böyük hissəsini neft və qaz məhsulları təşkil edirdi. Məsələn, 2019-cu ildə Türkiyəyə ümumi ixracın 88%-ni neft və qaz məhsullarından ibarət idi (yəni 2,5 milyard ABŞ dolları məbləğində). Qeyri-neft sektoruna gəlincə isə, əsas ixrac məhsullarından biri pambıq idi. 2019-cu ildə Türkiyəyə pambıq ixracı 129 milyon ABŞ dolları (ümumi ixracın 5%-i) idi. Bu kateqoriyada plastik və polimerlər 64 milyon ABŞ dolları (ümumi ixracın 2%-i), alüminium və ondan hazırlanan məmulatlar isə 56 milyon ABŞ dolları (ümumi ixracın 2%-i) təşkil edirdi. Qeyd edilən statistikalar Türkiyə ilə Azərbaycan arasında ticarət-iqtisadi əlaqələrin dinamik inkişafını və enerji sektorunun bu əlaqələrdəki mühüm rolunu göstərirdi.

## Nəticə

Türkiyə və Cənubi Qafqaz ölkələri arasında ticarət-iqtisadi münasibətlər son onilliklərdə əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Xüsusilə Azərbaycan və Gürcüstanla qurulan strateji əməkdaşlıq, enerji və nəqliyyat sektorlarında böyük layihələrin həyata keçirilməsi ilə güclənmişdir. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, TANAP və Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələr regionun iqtisadi inteqrasiyasına töhfə vermiş, Türkiyənin Cənubi Qafqazdakı təsirini artırmışdır. Ermənistanla ticarət əlaqələrinin məhdud olması isə əsasən siyasi və diplomatik faktorlarla izah edilir. Türkiyə Cənubi Qafqazda iqtisadi tərəfdaşlıq strategiyasını genişləndirməkdə maraqlıdır və

bu proses gələcəkdə yeni ticarət və investisiya imkanları yarada bilər. Xüsusilə, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində Türkiyə şirkətlərinin fəaliyyətinin genişlənməsi bu əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir. Gələcəkdə daha sıx iqtisadi inteqrasiya və gömrük prosedurlarının sadələşdirilməsi regiondakı ticarət əlaqələrinin inkişafına müsbət təsir edə bilər.

## Ədəbiyyat

*2005-ci il aprelin 14-də İstanbul şəhərində imzalanmış "Azərbaycan-Türkiyə hökumətlərarası Müştərək İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu"nun nəzərə alınması barədə Azərbaycan Respublikasının Prezidentinin Sərəncamıı*. (2025). https://e-qanun.az/framework/10454

*Ankarada Azərbaycan-Turkiyə Hökumətlərarası Əməkdaşlıq Komissiyasının 9-cu iclası keçirilib*. (2025). https://nk.gov.az/az/xeberler/safarlar

Aslanlı, A. (2018). Türkiye-Azerbaycan ekonomik ilişkileri. *Yönetim ve Ekonomi Dergisi*, *25* (1), 15-27.

*Azərbaycanda 4 200-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir*. (2025). https://abc.az/public/az/news/

*Azərbaycan-Türkiyə iş adamları forumu keçiriləcək*. (2025). https://fed.az/az/biznes/azerbaycan

Çelikpala, M. (2010). Türkiye ve Kafkasya: Reaksiyoner dış politikadan proaktif ritmik diplomasiye geçiş. *Uluslararası İlişkiler Dergisi*, *7* (25), 93-126.

Fikrətoğlu, R. (2025). *Qarabağda yol infrastrukturunun tikintisini layihələndirən "Proyapı" 2023 dünya reytinqində 138-ci, Türkiyə şirkətləri arasında 2-ci oldu*, https://www.xalqqazeti.a

*İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı*. (2025). https://www.stat.gov.az

Oran, B. (2013). *Türk Dış Politikası. Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar*. (C. 3). İletişim.

*Sur Yapı'nın Azerbaycan projeleri için ilk adımlar atıldı*. (2025). https://www.aa.com.tr/tr/isdunyasi/

*Tekfen İnşaat'tan Azerbaycan'da Stratejik İşbirliği İmzası*. (2025). https://www.tekfen.com.

*Türkiyə, Azərbaycanda qeyri-neft sektoruna ən çox investisiya qoyan ölkədir*. (2025). https://azadmedia.

*Türkiyə şirkətləri Qarabağda 4 milyard ABŞ dolları dəyərində olan layihələr icra edir. (*2025). https://teleqraf.az/

*Türkiyə-Azərbaycan ümumi ticarət dövriyyəsinə dair hər iki ölkənin rəsmi statistik göstəriciləri (2013-2021-ci illər).* (2025). Türkiyə Statistika Komitəsi (TÜİK); Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.